Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“05” iyun 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 23

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ İNFORMASİYA TEXNOLOGİYALARI İDARƏETMƏSİ VƏ ARXİTEKTURA ŞÖBƏSİ HAQQINDA ƏSASNAMƏ

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının İnformasiya texnologiyaları idarəetməsi və arxitektura şöbəsi (bundan sonra – Şöbə) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, Mərkəzi Bankın İdarə Heyətinin və daxili komitələrinin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. ŞÖBƏNİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Şöbənin fəaliyyətinin əsas məqsədi Mərkəzi Bankın informasiya texnologiyaları üzrə idarəetməsinin (siyasət, proseslər və qaydalarının), həmçinin texnoloji arxitekturasının beynəlxalq standartlara və Mərkəzi Bankın strateji hədəflərinə uyğunluğunun təmin edilməsidir.

## 3. ŞÖBƏNİN ƏSAS FUNKSİYALARI

Şöbənin əsas funksiyaları aşağıdakılardır:

3.1. Mərkəzi Bankın cari və növbəti illər üçün texnoloji arxitektorunun təyin edilməsi;

3.2. İnformasiya texnologiyaları əməliyyatları və Rəqəmsal mühəndislik departmamentlərinin daxili reqlament sənədlərinin hazırlanmasında iştirak edilməsi;

3.3. Şöbənin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.4. informasiya texnologiyaları məsələlərinə dair Mərkəzi Banka daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması.

3.5. rəhbərliyin tapşırığı ilə Şöbənin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. ŞÖBƏNİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Şöbənin təşkilati strukturu aşağıdakı bölmələrdən ibarətdir:

4.1.1. İnformasiya texnologiyaları idarəetmə bölməsi;

4.1.2. Arxitektura bölməsi.

4.2. Şöbənin fəaliyyətinə şöbə rəisi rəhbərlik edir. Şöbə rəisi işdə olmadıqda onun səlahiyyətlərini rəhbərliyin qərarı ilə həvalə edilmiş bölmə rəhbərlərindən biri və ya digər şəxs həyata keçirir.

4.3. Şöbənin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. ŞÖBƏNİN İŞİNİN TƏŞKİLİ

### 5.1. İnformasiya texnologiyaları idarəetmə bölməsi

5.1.1. İnformasiya texnologiyaları əməliyyatları və Rəqəmsal mühəndislik departamentlərinin daxili reqlament sənədlərinin standartlara uyğun olaraq hazırlanmasında iştirak edir və həmin sənədlərin aktual saxlanmasını təmin edir;

5.1.2. İnformasiya texnologiyaları əməliyyatları və Rəqəmsal mühəndislik departamentlərinin əsas fəaliyyət göstəricilərini proseslər üzrə ölçülə bilinməsini təmin edir;

5.1.3. monitorinq nəticələrini mütəmadi olaraq rəhbərliyə hesabat olaraq təqdim edir;

5.1.4. informasiya texnologiyaları sahəsində beynəlxalq standartların inkişafını izləyir və yeniliklərin sahə üzrə tətbiq edilməsinə dəstək göstərir;

5.1.5. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

### 5.2. Arxitektura bölməsi

5.2.1. Mərkəzi Bankın informasiya texnologiyaları arxitekturasının baza xəttini və nəzərdə tutulan təşkilati və texnoloji arxitektur diaqramlarını müvafiq funksiyalardan toplayır, hazırlayır və aktual saxlayır;

5.2.2. Mərkəzi Bankın informasiya texnologiyaları arxitektorunun baza xəttini və nəzərdə tutulan arxitekturlar arasındakı uyğunsuzluqları minimuma endirir;

5.2.3. Mərkəzi Bankın əsas strategiyasını nəzərə alaraq İnformasiya texnologiyaları, data və innovasyalar blokunun strategiyasını müvafiq struktur bölmələrlə bilrikdə hazırlayır və illik əsasda yeniləyir;

5.2.4. kritik informasiya sistemlərində dəyişikliklər icra olunduğu zaman ekspertiza və vizyon arxitekturlara əsasən qərarlar verir;

5.2.5. yeni sistemlərin tərtibatı və inteqrasiyası zamanı qeyri-funksional tələblərin nəzərə alınmasını təmin edir;

5.2.6. kritik sistemlərin qeyri-funksional tələblərini müəyyən edir və vaxtaşırı yoxlayır;

5.2.7. təchizatçılar tərəfindən icra olunan informasiya texnologiyaları ilə bağlı layihələrin ümumi arxitektura prinsiplərinə uyğun olmasına nəzarət edir;

5.2.8. Mərkəzi Bankın informasiya texnologiyaları sahəsinin inkişafını təmin etmək üçün yeni innovativ həlləri araşdırır və tətbiq edir;

5.2.9. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**